Azərbaycan Milli Elmlər Akademiyası
Rəyasət Heyətinin 27 iyun 2019-cu il tarixli
11/8 nömrəli qərarı ilə təsdiq edilmiş əlavə

# Azərbaycan Milli Elmlər Akademiyasının akademik Murtuza Nağıyev adına Xatirə nişanı haqqında

## ƏSASNAMƏ

1. Azərbaycan Milli Elmlər Akademiyasının akademik Murtuza Nağıyev adına Xatirə nişanı (bundan sonra – Xatirə nişanı) AMEA Rəyasət Heyətinin 3 aprel 2019-cu il tarixli 8/8 nömrəli qərarı ilə təsis edilmişdir.
2. Xatirə nişanı kimya sahəsində geniş tədqiqatlar aparan, onu fundamental və tətbiqi elmi nəticələri, kəşf və ixtiraları ilə zənginləşdirən alimlərə verilir.
3. Xatirə nişanına namizədlər AMEA Rəyasət Heyətinin üzvləri tərəfindən irəli sürülür.
4. Dövlət mükafatlarına layiq görülmüş işlərin müəllifləri həmin işlərə görə Xatirə nişanına namizəd kimi irəli sürülə bilməzlər.
5. Namizədin Xatirə nişanı ilə təltif edilməsi barədə yekun qərar AMEA-nın Rəyasət Heyəti tərəfindən qəbul edilir.
6. Xatirə nişanı ilə təltif olunan alimlərə müvafiq vəsiqə və AMEA Rəyasət Heyətinin qərarı ilə müəyyən edilmiş məbləğdə pul verilir.
7. Xatirə nişanı və müvafiq diplom AMEA-nın Rəyasət Heyətində təntənəli surətdə AMEA-nın prezidenti tərəfindən təqdim olunur.
8. Xatirə nişanı ilə təltif edilən alim haqqında məlumat AMEA-nın mətbu orqanlarında dərc edilir.
9. Bir alim Xatirə nişanı ilə təkrar təltif edilmir.